*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 212-217* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.1.212*

# Zəlimxan Yaqub və Borçalı aşıqları

**Tinatin Məmmədova**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: memmedovatinatin64@gmail.com

**Annotasiya.** Xalq şairi Zəlimxan Yaqub (1950-2016) müasir Azərbaycan şeirinin görkəmli nümayəndələrindən biridir. Xalqın taleyi və onun mənəvi-əxlaqi dünyasına məxsus ən incə mətləblər şairin yaradıcılığının əsas ideya-bədii qaynaqları sırasındadır. Zəlimxan Yaqub mənsub olduğu etnosun varlığını, əbədiyaşarlığını təcəssüm etdirən anlayışları özünün şeirlərində şair fəhmi və istedadı ilə yüksək ideallar səviyyəsinə qaldırdığı kimi, belə bir missiyanı epik irsində – poemalarında da əsas münasibət və tərənnüm obyektinə çevirməyə nail olur. Zəlimxan Yaqubun Borçalı aşıqlarına dair araşdırmaları da diqqətimizi çəkir. Onun "Əmrah dayı", "Aşıq Kamandara məktub", "Ədaləti dinlədim", "Aşıq Xanlara", "Aşıq Əmrah", "Sarıldığım sazdı mənim" şeirləri, deyişmələri, "Hüseyn Saraçlı" əsəri, "Saz" poeması aşıq şeiri tərzində yazılan əsərlərdəndir. Zəlimxan Yaqub Borçalı aşıqlarından Aşıq Əhməd Sadaxlı, Xındı Məmməd, Hüseyn Saraçlı və başqaları haqqında əsərlər yazmış və araşdırmalar aparmışdır.
**Açar sözlər:** Borçalı, aşıq mühiti, saz, aşıq, Zəlimxan Yaqub

**Məqalə tarixçəsi:** göndərilib – 13.02.2024; qəbul edilib – 20.02.2024

# Zalimkhan Yagub and Borchali ashugs

**Tinatin Mammadova**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: memmedovatinatin64@gmail.com

**Abstract.** People's poet Zalimkhan Yagub (1950-2016) is one of the outstanding representatives of modern Azerbaijani poetry. The fate of the people, the subtlest issues of its spiritual and moral world are among the main idea-artistic sources of the poet's creativity. Just as Zalimkhan Yagub raises the concepts embodying the existence and eternal life of the ethnic group he belongs to in his poems to a high level of ideals with his poet's understanding and talent, he manages to turn such a mission into the main object of attitude and praise in his epic heritage - poems. Zalimkhan Yagub's research on Borchali ashugs also attracts our attention. His poems and deyishmes such as "Uncle Amrah", "Letter to Ashug Kamandar", "I listened to justice", "Ashug Khanlara", "Ashug Amrah", "I was wrapped up in saz", the work "Huseyn Sarajlı", the poem "Saz" are written in the style of ashug poem. He wrote works and researched about Borchali's ashugs such as Ashug Ahmed Sadakhli, Khindi Mammad, Huseyn Sarajli and others.
**Keywords:** Borchali, environment of ashug, saz, ashug, Zalimkhan Yagub

**Article history:** received – 13. 02.2024; accepted − 20.02.2024

## Giriş / *Introduction*

Xalq şairi Zəlimxan Yaqub (1950-2016) müasir Azərbaycan şeirinin görkəmli nümayəndələrindən biridir. O, şeir və sənət aləminə keçən əsrin 60-cı illərinin sonlarında gəlmiş, az bir müddət ərzində xalq ruhunun və mənəviyyatının tərənnümünə həsr olunan poetik nümunələrlə oxucuların və ədəbi ictimaiyyətin dərin rəğbətini qazanır. Onun yaradıcılığında şəxsiyyət – insan, onun mənəvi dünyası, özünü axtarış təkamülü aparıcı mövzu istiqamətlərindən biri kimi müəyyənləşir. Xalq taleyi, onun mənəvi-əxlaqi dünyasına məxsus ən incə mətləblər şairin yaradıcılığının əsas ideya-bədii qaynaqları sırasındadır. Bu, doğru qənaətdir ki: "Zəlimxan Yaqubun poeziyasında milli dəyərlərin unudulmasına, etinasızlığa, biganəliyə qarşı bir üsyan var. Bu şeirlərin poetik gücü bir də ona görə effektli təsir bağışlayır ki, onlar şairin öz əxlaqından, düşüncə və zəkasından, mənəviyyatından qidalanır" [1, s.15].

Zəlimxan Yaqub mənsub olduğu etnosun varlığını, əbədiyaşarlığını təcəssüm etdirən anlayışları özünün şeirlərində şair fəhmi və istedadı ilə yüksək ideallar səviyyəsinə qaldırdığı kimi, belə bir missiyanı epik irsində – poemalarında da əsas münasibət və tərənnüm obyektinə çevirməyə nail olur. Əlamətdar haldır ki, şair milli varlığı və düşüncəni özündə əks etdirən xüsusiyyətləri yalnız məhdud və mücərrəd halda təqdim etmək yolu tutmur, məsələn, o, xalq anlayışını, təsəvvür və adət-ənənəsini daha real və təbii boyalarla təsvirə gətirəndə ona alternativ və adekvat anlayışlardan sənətkarlıqla yararlanmağa müvəffəq olur. Bu, xalqın bağrının, ürəyinin başında gəzdirdiyi sazdır. Saz sadəcə olaraq bir musiqi aləti kimi şairi düşündürmür, saz həm də xalqın danışan dili, dərdlərinin, qayğılarının tərcümanı, dar gündə, böyük mübarizə və döyüş meydanlarında düşmən üzərinə atılan igidləri zəfərə və qalibiyyətə sövq edən xalqla bərabər bir anlayış səviyyəsinə qaldırılır. Saz-söz Zəlimxan Yaqubun əsas ilham qaynaqlarından biridir.

## Əsas hissə / *Main part*

Zəlimxan Yaqubun yaradıcılığında aşıq şeirinin oynadığı rolu akademik İsa Həbibbəyli belə səciyyələndirir: "Aşıq ədəbiyyatı üstündə köklənən Zəlimxan Yaqub hətta ədəbiyyatımızda ilk dəfə olaraq ayrı-ayrı saz havalarına onların ruhuna uyğun olan şeirlər yazmışdır.

Bu mənada Zəlimxan Yaqubun Borçalı aşıqlarına dair araşdırmaları da diqqətimizi çəkir. Zəlimxan Yaqub əsərlərində sazla sözü birləşdirir. O öz müsahibələrində Borçalı sənətkarlarını böyük məhəbbətlə yada salır, Aşıq Əmrah, Aşıq Kamandar, Aşıq Hüseyn Saraçlı, Ziyəddin kimi şeirlərində Borçalı taleyini əks etdirən aşıqlara vurğunluğunu daim ifadə edir. Saza böyük məhəbbət və ehtiram bəsləyən Zəlimxan Yaqubun fikirləri aşağıdakı kimidir:

"Saz Zəlimxan Yaqubun, Türk dünyasının, Azərbaycan xalqının, Borçalının birinci emblemidir, birinci nişanıdır, biz ona tapınırıq. Çünki saz deyiləndə nəyi nəzərdə tuturuq? Saz deyiləndə Dədə Qorquddan tutmuş, bax, indi gördüyün ustad sənətkarımız Aşıq Məhəmməd Sadaxlıyacan yol gəlib. Nə qədər Dədələr varsa, onları Dədələşdirən saz olub. Dədə Qorqud, Dədə Qurbani, Dədə Abbas, Dədə Qasım, Dədə Ələsgər, Dədə Alı, Dədə Şəmşir, Dədə Əmrah...bunların hamısını Dədələşdirən saz olub. Ona görə sazla bağlı olan ustadlar mənim mənəvi Dədələrimdir. Bu, ölənə qədər də belə olacaq. Mənim yaddaşımda heç vaxt çaşqınlıq olmayıb. Saz məni çaşmağa qoymaz. Saz məni həmişə nizam saxlayır, yuxarıda saxlayır. On min adam olsun, on min şair olsun, yazıçı olsun, saz qoymaz mən çaşam! Saz qoymaz mən pəltəkləyəm. Mənim şeirlərim niyə bu qədər dillərdə yayılır. Çünki laylanın üstündədir, pərdənin üstündədir, ahəngin üstündədir. İndi aşıq özündən xəbərsiz oxuyur, aşıqdı, təbi coşub deyir. Amma o oxuduqca, xəbəri yoxdur ki, mən ondan nələri götürürəm. O havacat sənin varlığına hopur, buna görə sazdan doymaq qeyri mümkündür. Zarafat deyil, 65 ilimin 50 ilini sazın içindəyəm. Özü də elə kişilərin sazını çalmışam ki, elə kişilərlə üz-üzə oturmuşam-durmuşam ki, onlardan doymaq qeyri mümkündür. Bu ola bilməz. Mən iki adamı görmədi-

yimə görə, həmişə bir dəhşətli aclıq çəkirəm. Aşıq Sadıq Sultanovla Xındı Məmmədi görmədiyimə görə, çox ağrı çəkirəm. Çünki bunlar çox böyük ustadlar olublar. İndi Zəlimxan onları da görsəydi, yəqin indikindən bir az da güclü olardı. Yəni bu gün Zəlimxan Yaqub adlı bir şair meydanda varsa, onun kökündə saz dayanır, sazı sinəsində gəzdirən ustad aşıqlar dayanır, Borçalı aşıqları dayanır. Bütün aşıqlara, ustadlara, min illər boyu saza şeirlər yazılıb. Amma saza ilk heykəli qoyan öz “Saz” poeması ilə Borçalıda doğulan şair olub” . Onun “Əmrah dayı”, “Aşıq Kamandara məktub”, “Ədaləti dinlədim”, “Aşıq Xanlara”, “Aşıq Əmrah”, “Sarıldığım sazdı mənim” şeirləri, deyişmələri, “Hüseyn Saraçlı” əsəri, “Saz” poeması aşıq şeiri tərzində yazılan əsərlərdəndir.

Borçalı aşıqlarından biri də Aşıq Əhməd Sadaxlıdır. Borçalı aşıq məktəbinin görkəmli nümayəndələrindən olan Əhməd Sadaxlı (Əhməd Mustafa oğlu Nəbiyev) 1935-ci il martın 2-də Borçalının Sadaxlı kəndində anadan olmuşdur. 1959-1960-cı illərdə Seydiqocalı aşıq Orucun, aşıq Mehdi Göycəlinin, bir il isə Sadıq Sultanov və onun qardaşı Məmmədin şəyirdi olub. 1962-ci ildən isə Hüseyn Saraçlıya şəyirdlik edib və bu böyük sənətkar 1987-ci ildə dünyasını dəyişənədək onunla bərabər olub. O, aşıqlıq sənətinə yiyələnəndən sonra Borçalının müxtəlif guşələrində ağır məclislər aparıb, sənətə qiymət qoyub, əbədiyaşar olması üçün bu sənəti neçə-neçə gənclərə həvəslə öyrədib. Onun haqqında da Zəlimxan Yaqub daim müsbət fikirlər söyləmişdir. Zəlimxan Yaqub aşığa daim hörmət bəsləmiş, hətta onun Qars səfərini də dastana saldığını söyləmişdir. Lakin bu söyləmə lent yazısına alınmadığından, Zəlimxan Yaqub bu dastanı dinləyə bilməmişdir.

XX əsr Azərbaycan aşıq sənətinin çox böyük simalarından biri Xındı Məmmədi “öz səsiylə, avazıyla Tanrı dərgahından gələn, Allahın avazı, möcüzəsi” adlandırır. Əmrah Gülməmmədovdan danışanda deyir ki, Əmrah əsrlərdən gələn səs, “tel gücünü sel gücünə döndərən” sənətkardır, yerin yeddi qatından şirə çəkib mayalanan kökümüzdür. Əmrahın hər barmağının bir cür xalı varıydı, hər xalında bir Borçalı varıydı: “Özünün saz dünyası ilə havalara yenilik gətirən, Azərbaycan tarixində ilk dəfə olaraq sazı püxtələşdirən, kamilləşdirən, on bir telli saz şəklinə salan, onu Tanrı dərgahına qaldıran şəksiz və şəriksiz, müdaxiləsiz və müdafiəsiz, tərəddüdsüz Aşıq Əmrah Gülməmmədov olub”.

Əmrah kimi ölməzlərin önündə “gəlib diz çökənləri” də görən şair onu yurdun dədələşən övladı adlandırır, “Əmrah ömrü ömürlərə paylanan bir danılmaz həqiqətin ömrüdür”, onun ayrılığı dağdan ağır yükümüzdür, “onun səsi qulağımda qalmasa, mənim səsim yer üzünə yayılmaz”, – deyir, mən aşığam deyib, sənətdən xəbərsiz naşılara məsləhət görür ki:

*Əlli il taxtaya, simə döyüncə,*
*Bircə gün sazını çal Əmrah kimi.* [3, s.255]

Şair deyir ki, Dədə Qorqud zirvəsiylə tən duran aşıq Əmrah zirvəsi elə bir zirvədir ki, çox boylara öz boyundan boy verəcək. Onun sənətini Haqqın vergisi adlandırır:

*Min ömür uzadıb, ömür üzməyib,*
*Yersiz oynamayıb, yersiz süzməyib.*
*Usta bağlamayıb, zərgər düzməyib,*
*Sənə Haqdan gəlib saz, Əmrah dayı.* (“Əmrah dayı”) [3, s.161]

Çox ustadlar görən Zəlimxan Yaqub deyir ki, Aşıq Əmrah pərdə-pərdə, xana-xana ruha hopdu, qana keçdi, yana-yana ocaq oldu, təbi daşqın Araz oldu, telli sazın meydanında şir gəldi, şir getdi, pir gəldi, pir getdi, bir gəldi, bir getdi:

*Başımıza gəldi nələr,*
*Ay Zəlimxan, qaldıq mələr.* [3, s.163]
*Açıldı çox möcüzələr,*
*Əmrah sirr gəldi, sirr getdi.* (“Aşıq Əmrah”) [3, s.163]

Hüseyn Saraçlıya yazdığı “Hüseyn Saraçlı” dastan poeması diqqətimizi cəlb edir. 2006-cı ildə qələmə alınan “Hüseyn Saraçlı dastanı” (dastan-romanı) özünün quruluşu, mövzu və ideya-bədii xüsusiyyətləri ilə seçilir. Şair yaradıcılığında dastan yaratmaq ənənəsinə həvəs və marağın oyanmasını on üç cildlik “Əsərləri”nə yazdığı ön sözdə belə izah edir: “Ömrümün uşaqlıq çağlarından böyük sənətkarların  danışdığı dastanları yaddaşıma köçürməyim, o dastanların qəhrəmanlarına bənzəmək həvəsim sonralar mənə o imkanı verdi ki, “Saz”, “Yunus Əmrə”,“Ələsgər”, “Aşıq Hüseyn Saraçlı”, “Əbədiyyət”, “Peyğəmbər” kimi lirik-epik əsərlər, dastanlar yaratdım. Əgər vaxtilə çox böyük təsir gücünə, dil gözəlliyinə malik olan dastanları qəlbimə, ruhuma köçürməsəydim, məndə zərrə qədər şübhə yoxdur ki, yuxarıda adını çəkdiyim əsərlərin heç biri dünyaya gəlməzdi”. Əsərdə ulu Borçalı mahalının ünlü sənətkarı aşıq Hüseyn Saracçlının həyatı, yetişdiyi mühit, ailə, el-oba çevrəsi, aşıqlıq sənətinin incəliklərinə yiyələnmək məharəti, ən nəhayət, sənətinin zirvəsində böyük ad-san, şöhrət qazanması təbii və inandırıcı boyalarla nəql olunur. Dastan poetikasının bütün elementlərini özündə əks etdirən əsərin başlanğıcının ənənəvi ustadnamə ilə açılması belə bir həqiqətdən soraq verir. Ustadnamə, şübhəsiz ki, Hüseyn Saraçlıdan da verilə bilərdi, ancaq Zəlimxan Yaqub özünün bu qəlibləşən janrın tələblərinə tam şəkildə cavab verən yaxşı bir nümunəsini təqdim edir.

*Körpə vaxtı bir beşiyə sığırsan,*
*Cavan vaxtı dünya sənə dar gəlir.*
*Bivəfadı, bel bağlama ömrə sən,*
*Aylar keçər, qış yetirər, qar gələr.*

*Əyilməyə qoymayasan işini,*
*Sındırasan ehtiyacın dişini,*
*Nizam olmaq tez ucaldar kişini,*
*Hardan gəlsə əllərində var gələr.*

*Qılınc ensə, qalxan olmaz hər sinə,*
*Oğulsansa çətin günə gər sinə,*
*Ay Zəlimxan, iş dönəndə tərsinə,*
*Nə dost çatar, nə imdada yar gələr.* [4, s.175]

Əsərin nəsrlə olan parçalarının təhkiyəsi çox mükəmməldir. Dili son dərəcə səlis və rəvandır. Həmin hadisələrin təsviri nəzmlə verilsə, bəlkə də, əsərin dilində xoşagəlməz bir yorğunluq yaranardı. Poemanın yazılmasında dastançılıq ənənəsinə kifayət qədər əməl edilib. Əsər üç ustadnamə ilə başlayır. Sonra isə müəllif butaalmanı xatırladan yuxu görür. Bu əsərin yazılması üçün şair ustad aşığın özündən xeyir-dua alır. Əsər boyu müəllifin obrazını da müşahidə etmək olur. O, bəzən qəhrəmanı ilə həmsöhbət olur və ona həyati suallar verir. Elə ilk sualları da aşığın keçmişinə işıq salır. Aşıq bu qədər dərdli olmasının səbəbini on yaşı olarkən atası Qurban ağanın Saraçlının Yuxarı başında, Qaraqayanın döşündə, Qalxma arxının üstündə şura hökuməti tərəfindən rus beşaçılanı ilə güllələnməsi ilə izah edir. “Qurban kişinin ölümündən üç gün sonra hökumətdən kağız gəlir ki, onu güllələmək olmaz, bağışlamaq lazımdır”. Bu epizodlarla keçən əsrdə mövcud quruluş tərəfindən xalqımızın başına gətirilən haqsız müsibətlərin iç üzü göstərilir. Qərarı verilməmiş icrası həyata keçirilən məqsədyönlü qətllərin məramı aydınlaşdırılır. Hüseyn Saraçlının atasının dostu Tomarrı Qurban kişigilə Cücəkəndə getməsi və onun qızı Şahsənəmə vurulması ilə əsərin razvyazkası başlayır. Onun qızla əhdi-peyman bağlayıb anasına bu xəbəri çatdırması ilə əsərə düyün vurulur. Anası ona bildirir ki, bu sevda elə atasının da uşaqlıq arzusu olub. Ata qəbrindən xeyir-dua alıb nişan edirlər. 37-ci ilin fəlakətləri onları iki il nişanlı qalmağa məcbur edir. Evləndikdən sonra üç oğulları, üç qızları olur.

Bundan sonrakı bölümdə yenə müəllif yuxusunda iki dəfə aşığı görür. Ona verilən suallar və alınan cavablar türkün taleyindən narahatlığı əks etdirir. Bu hissədə çoxlu türk torpaqlarının adları

çəkilir və onların indiki durumundan gileylər verilir. Bununla yanaşı, bir çox ustad aşıqların, kəndlərin, xalq oyunlarının, milli yeməklərin, yol-izlərin adları çəkilir, onları qorumağı türklüyü qorumaq kimi xarakterizə edir. Həm də Hüseyn Saraçlıyla bir çox başqa aşıqlar arasında olmuş əhvalatlar milli örnək kimi təqdim olunur. "Aradan 27 il keçib, mən niyə bu xatirəyə qayıtdım? Qayıtdım ona görə ki, köhnə kişilərin kişi xarakteri var idi" [4, s.120]. Ümumiyyətlə, poemada Hüseyn Saraçlı ilə bağlı bir çox əhvalatlara yer verilmişdir. Onunla birgə digər sənətkarlarımız haqqında da ibrətamiz bilgilər almış oluruq. Poemanın əsas leytmotivi Borçalıdan olan aşığın timsalında Borçalının aqibətinə nəzər salmaqdır. Hüseyn Saraçlıdan sonra o mahalın necə yoxluğa doğru getməsinin kədərini əks etdirməkdir. Əslən Borçalıdan olub, sonralar didərgin həyatı yaşayanların da obrazı yaradılır. "Günlərin bir günü belə bir məktub İstanbuldan – Qul Mehdidən gəldi. Aydın oldu ki, onun şairliyi də var. Özü də şair Nəbinin eloğlusudu, Faxralı kəndindəndi. Hasannılardandı. İkinci Cahan savaşında almanlara əsir düşüb, öz xilas yolunu Türkiyədə tapıb". Hüseyn Saraçlı tezcə Qul Mehdinin məktubuna cavab yazsa da, məktub yalnız onun məzarı üstündə oxuna bilir. Poemada aşığın haqq aşığı olmasına işarə edən çoxlu haşiyələr var. Onlardan biri də belədir: Aşıq Lök Candarına toya gedərkən yolda bir insanla rastlaşır. Həmin adamın qatil olduğunu və keçirdiyi hissləri anlayır. Gedib toya çatarkən bəlli olur ki, qatil elə həmin aşıq toyunu eləməyə gəldiyi oğlanı öldürübmüş.

Əsərdə Hüseyn Saraçlının müxtəlif bölgələrə səfərlərindən və orda qazandığı hörmətlərdən də bəhs edilir. Onun Aşıq İslam Ərdənərlə Borçalıda görüşü vətəndən didərgin düşənlərin vətənə dönüşünün simvolu kimi verilib. Təbrizin cəngavər aşığı Aşıq Hüseyn Cavanla Gəncədəki görüşü Təbriz həsrətini, vətənin parçalanmasını ifadə edir. Dərələyəzdə İbrahim kişinin bir həftə saz-söz məclisinin qonağı olması, Sərraf Qasımla deyişmələri bütövlük rəmzi kimi xarakterizə olunub. Bunların içərisində ən təsirli səfər Qazaxıstan səfəridir. Otuzuncu illərdə Füzuli rayonunun Kərimbəyli kəndindən sürgün edilənlər haqqında ayrıca poeması olsa da, bu əsərdə də həmin məsələyə toxunulub. Əskiparadan sürgün edilən Bimar Mehralı adlı şairlə olan əhvalat repressiya illərinin bütün acınacaqlı anlarını göz önünə gətirir. Mehralının butası olan Gülnara elçi gedirlər. İki il sonra onlar aşığı Qırğızıstana, oğullarının sünnət toyuna çağırırlar. Aşıq da uşağın adını Vətən qoyur. Aşıq qayıdandan altı ay sonra Bimar Mehralı ona məktub göndərir. Məktub Hüseyn Saraçlıya yetişəndən bir həftə sonra Bimar ayrılığa dözə bilməyib ölür. Poemada Hüseyn Saraçlı ilə bağlı əhvalatlar qələmə alınarkən, məqamı gəldikcə digər sənətkarlarla bağlı epizodlar verilir. O, bütün şəyirdləriylə birgə Ağbaba mahalına qonaq gedir. Orda baş verən hadisələr söylənilərkən Aşıq Şenliyin Mehdixanların toyunda zəhərlənməsi hadisəsi də qələmə alınır. Eləcə də Faxralıda şair Nəbinin qəbrini ziyarət edərkən, bir çox başqa sənətkarlar haqqında da bilgi almış oluruq.

Əsərin final hissəsini Zəlimxan Yaqub "Kim idi Aşıq Hüseyn Saraçlı?" sualı ilə başlayır. Cavabı da özü verir ki, əslində onun kimliyi onun böyüklüyündə idi. Müəllif bu böyüklüyü belə qiymətləndirir. "Böyük sənət də özünü ağlayan, içinə enən, əslinə, kökünə qayıdan sənətdi" [4, s.125]. Sonluğa yaxın poemanın yazılmasının əsl səbəbinin faciələrimizin yaddan çıxarılmaması, mənəvi səfərbərliyə çağırış olduğu məlum olur. Aşığın 70 illik ömür yolunu qələmə almaqda şairin məramı əsl insan həyatı yaşayanların örnək kimi dəyərləndirilməsidir. Aşıq 1987-ci ildə dünyasını dəyişsə də, şair onun qəbri üstə verdiyi sözə 20 il sonra əməl edir. Onun adına dastan bağlayır. "O mənim Şəmsim oldu, mən onun Mövlanası, – Aşıq Hüseyn Saraçlı" misraları ilə səmimi etiraflarını edir. Poemaya diqqətlə nəzər saldıqda sanki elmi tədqiqat təsiri bağışlayır. Hətta poemanı folklor toplusu da adlandırmaq olar. Əsərdə çoxlu atalar sözü və məsəllər, rəvayətlər, bayatılar işlədilməklə bərabər, bir çox aşıq havalarının, aşıqların və sairə adları çəkilmişdir. Xeyli dastanların adlarına rast gəlirik.

## Nəticə / *Conclusion*

Fikirlərimizin yekunu olaraq söyləyə bilərik ki, Zəlimxan Yaqub xalq ruhuna, poetik fikrimizin gözəl ənənələrinə səmimi hörmət bəsləyən şairlərdəndir. O, saz-söz sənətimizə, aşıq ədəbiyyatı-

mıza dərindən bağlı olan biri kimi daim bu ədəbiyyatın nümayəndələrini öz şeirlərində yaşatmışdır. Azərbaycan xalqının zəngin şifahi və yazılı poetik irsinin həqiqi varisi olan Zəlimxan Yaqub bu tükənməz mənəvi xəzinədən bəhrələnməklə milli ədəbi aləmdə özünəməxsus cığır açdı. Zəlimxan Yaqub müasir Azərbaycan şeirinin korifeyi missiyasını şərəflə yerinə yetirmişdir. Onun poeziyası milli oyanışa, milli ruhun təbliğinə, milli özünüdərkə xidmət edir. Bu mənada onun Borçalı aşıqlarına dair araşdırmaları və bu araşdırmalardan yola çıxaraq yazdığı şeir nümunələri misilsiz sənət inciləridir.

**Ədəbiyyat / *References***

1. Həbibbəyli İ. Zəlimxan Yaqub sənətinin özünəməxsusluğu. Ədəbi şəxsiyyət və zaman, Əsərləri, 10 cilddə, II cild. – Bakı: Elm və təhsil, 2017, s.924.
2. Zəlimxan Y. Seçilmiş əsərləri. 2 cilddə, I cild. – Bakı: Şərq-Qərb, 2006.
3. Zəlimxan Y. Seçilmiş əsərləri. 2 cilddə, II cild. – Bakı: Şərq-Qərb, 2006.
4. Zəlimxan Y. Hüseyn Saraçlı dastanı. – Bakı: Pedaqogika, 2007, 256 s.

## Залимхан Ягуб и ашуги Борчалы

**Тинатин Мамедова**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: memmedovatinatin64@gmail.com

**Резюме.** Народный поэт Залимхан Ягуб (1950-2016) один из выдающихся представителей современной поэзии Азербайджана. Судьба народа, присущие его нравственно-духовному миру самые тонкие струны – вот основные идейно-художественные источники его творчества. В своих стихах поэт воплотил понятия жизнь, вечность этноса, от которого он произошёл, подняв на уровень высоких идеалов, своим незаурядным поэтическим талантом достиг отражения этой миссии в своём эпическом наследии – в поэмах, превратив в объект основного воспевания и уважения. К вниманию привлечены и исследования Залимхана Ягуба об ашугах Борчалы. У него есть стихи, написанные в ашугском стиле: «Дядюшка Амрах», «Письмо Ашугу Камандару», «Прослушал Адалята», «Ашугу Ханлару», «Ашуг Амрах», «Мой старый саз». Сочинения на состязаниях ашугов, произведение «Гусейн Сараджлы», поэма «Саз» написаны в стиле ашугской поэзии. Им написаны труды и проведены исследования об ашугах Борчалы – Ашуг Ахмеде Садахлы, Хынды Мамеде, Гусейне Сараджы и других.
**Ключевые слова:** Борчалы, ашугская среда, саз, ашуг, Залимхан Ягуб